# Məxfilik Siyasəti

‘’Zaman Sığorta və Təkrar Sığorta üzrə Broker’’ MMC (bundan sonra ismin müvafiq hallarında "bizə", "biz", və ya "bizim") www.2222.az domenində yerləşən veb səhifəsini (“Xidmətlər") idarə edir, o cümlədən onun vasitəsilə müştərilərə sığorta məhsullarını onlayn təklif edir. KASKO BUTİK ‘’Zaman Sığorta və Təkrar Sığorta üzrə Broker’’ MMC (müddətsiz lisenziya 000019, 23 fevral 2009) yə məxsusdur və onun müəlliflik hüquqları ilə qorunur.

Məxfilik siyasətinin (bundan sonra “Sənəd’’) məqsədi Xidmətlərimizdən istifadə etdiyiniz zaman, şəxsi məlumatlarınızın toplanması, istifadəsi və açıqlanmasına dair bizim siyasətimizlə sizi tanış etməkdir.

Biz bəyan edirik ki, tərəfinizdən təqdim edilən məlumatlarınızı bu Sənəddə göstərilmiş şəxslərdən başqa heç kimlə paylaşmayacaq və bu Sənəddə müəyyən edilmiş məqsədlərdən başqa digər heç bir məqsəd üçün istifadə etməyəcəyik.

Sizin şəxsi məlumatlarınızı yalnız göstərdiyimiz xidmətlərin qüsursuzluğunu təmin etmək və inkişaf etdirmək üçün istifadə edirik. Xidmətlərimizdən istifadə etməklə siz məlumatlarınızın bu Sənədə uyğun toplanmasına, istifadəsinə və açıqlanmasına razılıq vermiş hesab edilirsiniz. Əgər başqa cür nəzərdə tutulmayıbsa, bu Sənəddə istifadə olunmuş terminlər www.2222.az veb səhifəsində göstərilmiş digər Qaydalardakı terminlərlə eyni mənada işlədilir.

## Məlumatların Toplanması və İstifadəsi

Xidmətlərimizdən istifadə edərkən, öhdəliklərimizi yerinə yetirə bilməyimiz üçün biz sizin şəxsiyyətinizi müəyyən etmək, sizinlə əlaqə yaratmaq və müqavilədən irəli gələn digər vəzifələrimizi icra etmək məqsədilə müəyyən şəxsi məlumatlarınızı təqdim etməyinizi xahiş edə bilərik. Şəxsi

məlumatlarınıza sizin elektron poçt ünvanınız, adınız, soyadınız, ata adınız, ünvanınız, telefon nömrəniz, şəxsiyyət vəsiqənizin məlumatları, avtomobilinizə dair məlumatlar və digər məlumatlar ("Şəxsi məlumatlar") aiddir. Şəxsi məlumatlar yuxarıda adları çəkilənlərlə məhdudlaşmaya bilər və əqdlərin uğurla bağlanması, eyni zamanda sizə peşəkar və operativ xidmət göstərilməsi üçün digər məlumatlarınızın da verilməsi xahiş edilə bilər.

## Loq Məlumatları

Eyni zamanda nəzərə alın ki, siz hər dəfə bizim Xidmətlərdən istifadə etdiyiniz zaman brauzerinizin bizə göndərdiyi məlumatları da ''məlumatlar jurnalı" da toplaya bilərik. Bu tip məlumatlara sizin kompüterinizin İnternet Protokol (''İP'') ünvanı, brauzerin növü, versiyası, bizim xidmətlərimizdə baxdığınız səhifələr, ziyarətinizin vaxtı və tarixi, həmin səhifələrdə keçirdiyiniz vaxt və digər statistik məlumatlar da daxildir.

## ''Kuki''lər (Cookies)

Kukilər, anonim unikal identifikatoru olan kiçik ölçülü fayllardır. Onlar sizin internet brauzerinizə veb səhifələr tərəfindən avtomatik göndərilir və kompüterinizin sərt diskində saxlanılır.

Əgər siz Kukilərin brauzerinizə göndərilməsinin qarşısını almaq və ya hər dəfə kukilər göndərildiyində bu barədə bildiriş gəlməsini istəyirsinizsə, bunu brauzerinizin sazlamalarında dəyişə bilərsiniz. Xahiş edirik nəzərə alasınız ki, biz Kukiləri TOPLAMIR və ya İSTİFADƏ ETMİRİK.

## Davranış Remarketinqi

Biz öz işimizdə remarketinq xidmətlərindən istifadə edirik ki, bu da o deməkdir ki, siz bizim xidmətlərdən istifadə etdikdən sonra bu haqda məlumatlar digər veb saytlarda da qarşınıza çıxa bilər.

**Facebook**

- Facebook remarketinq xidmətləri Facebook Inc. tərəfindən göstərilir.
- Siz Facebook tərəfindən edilən internet reklamları haqda bu səhifədən daha ətraflı məlumat əldə edə bilərsiniz: https://www.facebook.com/help/164968693837950
- Facebook-un internet reklamlarından birdəfəlik imtina etmək üçün Facebook-un növbəti səhifədəki təlimatlarını ardıcıllıqla yerinə yetirə bilərsiniz: https://www.facebook.com/about/ads/#568137493302217
- Siz Facebook-un məxfilik siyasəti haqda bu səhifədən daha ətraflı məlumat əldə edə bilərsiniz: https://www.facebook.com/privacy/explanation

## Xidmət Göstərənlər

Biz Xidmətlərimizin təşkil olunması, bizim adımızdan həmin xidmətlərin təqdim edilməsi, xidmətlərimizlə əlaqədar digər zəruri işlərin görülməsi və ya xidmət keyfiyyətinin ölçülməsi və ya bu məqsədlə məlumatların təhlilində üçüncü şəxslərlə əməkdaşlıq edə və onların xidmətlərindən istifadə edə bilərik.

Həmin üçüncü şəxslər onlara həvalə edilən işləri görmək üçün yalnız bizim adımızdan sizin şəxsi məlumatlara giriş əldə edirlər. Bu giriş onlara verilən zaman onlar dərk edir və qəbul edirlər ki, həmin məlumatları açıqlamamaq, habelə başqa məqsədlərlə istifadə etməmək üzrə öhdəlik daşıyırlar.

## Əlaqələr

Baş verən yeniliklər, keçirilən kampanyalar, marketinq və təşviqat xarakterli məlumatlar və digər sizin üçün maraqlı ola biləcək hadisələr barədə Sizi məlumatlandırmaq üçün şəxsi məlumatlarınızdan istifadə etməklə sizinlə əlaqə yarada bilərik. Sizə elektron məktublarda göndərdiyimiz abunəlikdən imtina etmək istəsəniz, həmin məktublardakı veb-keçiddən və ya təlimatlardan istifadə edərək adı çəkilən əlaqələrdən imtina edə bilərsiniz.

## Təhlükəsizlik

Şəxsi məlumatlarınızın təhlükəsizliyi bizim üçün olduqca vacibdir, lakin nəzərə alın ki, internet vasitəsilə edilən heç bir məlumat ötürmə vasitəsi və ya heç bir elektron məlumat saxlama üsulu 100% təhlükəsiz deyil. Baxmayaraq ki, biz sizin şəxsi məlumatlarınızı qorumaq üçün bütün mümkün müdafiə metodlarından istifadə edirik, məlumatlarınızın tam təhlükəsizliyinə zəmanət verə bilmirik.

## Məlumatların Beynəlxalq Ötürülməsi

Sizin məlumatlarınız yaşadığınız ölkə, şəhər, rayon və digər inzibati ərazi vahidlərindən kənarda yerləşən kompüterlərə göndərilə və ya həmin kompüterlərdə saxlanıla bilər. Həmin kompüterin yerləşdiyi ərazinin qanunları sizin vətəndaşı olduğunuz və ya yaşadığınız ərazinin qanunları ilə üst-üstə düşməyə bilər.

Əgər siz Azərbaycan Respublikasından kənarda yaşayır və bizə məlumatlar ötürürsünüzsə, biz həmin məlumatları, o cümlədən sizin şəxsi məlumatlarınızı Azərbaycan Respublikasına göndərəcək və orada emal edəcəyik, bunu nəzərə almağınızı xahiş edirik.

Sizin bu Sənəd ilə razılaşmağınız və ardınca yuxarıda qeyd olunan məlumatları bizə göndərməyiniz adı çəkilən bütün məlumat ötürmələrinə razılıq verməyiniz kimi başa düşülür.

## Digər Veb-Saytlarla Əlaqə

Xidmətlərimizdə bizim tərəfimizdən işlədilməyən veb-saytlara keçidlər ola bilər. Siz həmin keçidlərə kliklədiyiniz zaman üçüncü şəxslərin veb-saytına göndəriləcəksiniz. Ona görə də sizə tövsiyyə edirik ki, daxil olduğunuz hər bir veb-saytın Məxfilik Siyasətini diqqətlə oxuyasınız.

Üçüncü tərəflərin veb-saytlarının və ya xidmətlərinin məzmunu, məxfilik siyasətləri və ya təcrübələri üzərində heç bir nəzarətimiz yoxdur və onlara görə hər hansı bir məsuliyyət daşımırıq.

## Uşaqların Təhlükəsizliyi

Xidmətlərimiz 16 yaşdan aşağı şəxslər (‘’Uşaqlar’’) üçün nəzərdə tutulmayıb.

Biz bilərəkdən 16 yaşdan aşağı şəxslərdən onların şəxsiyyətini təsdiq edən məlumatları toplamırıq. Əgər siz həmin uşaqların valideyni və ya qəyyumusunuzsa və övladınızın bizə hər hansı şəxsi məlumatı ötürdüyünü bilirsinizsə, xahiş edirik, bizimlə əlaqə saxlayın. Əgər biz uşaqların valideynin razılığı olmadan bizə şəxsi məlumat ötürdüyünü aşkarlasaq, biz həmin məlumatların serverlərimizdən silinməsi üçün zəruri addımları atacağıq.

## Məxfilik Siyasətinə Düzəlişlər

Biz hazırkı Sənədə vaxtaşırı dəyişikliklər etmək hüququna malikik. Belə dəyişikliklər haqqında məlumatları, eyni zamanda yeni Məxfilik Siyasətini bu veb-səhifədə paylaşmaqla sizi xəbərdar edəcəyik.

Biz sizə bu Sənədi vaxtaşırı oxumağı tövsiyə edirik. Sənəddə edilən istənilən dəyişiklik, o cümlədən yeni Məxfilik Siyasəti bu veb-səhifədə yerləşdirilən andan qüvvəyə minmiş hesab ediləcəkdir.

## Bizimlə Əlaqə

Məxfilik Siyasəti haqqında hər hansı sualınız yaranarsa, bizimlə office@zamanbroker.az elektron poçtu vasitəsilə əlaqə saxlamağınızı xahiş edirik.